# “BİZ ÖZ HƏYATIMIZIN MÜƏLLİFLƏRİYİK”



**Millət vəkili, Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan: “Ağlıma gəlməzdi ki, mən gələcəkdə millət vəkili, ictimai xadim və musiqiçi ola bilərəm. Amma bunlar oldu. Hər bir insanın taleyi öz əlindədir”.**



**Fotolar:** Rüfət Mikayılov/ Global Media Group




“53 il öncə bu məktəbə qədəm qoymuşam. 10 il 7 km məsafəni hər gün məktəbə və evə gedib-gəlmişəm. Hər dəfə də bu küçədən, məktəbin yanından keçəndə bərk həyəcanlanıram...” Millət vəkili, Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan vaxtilə təhsil aldığı Keşlə qəsəbəsindəki 201 saylı tam orta məktəbdə qonaq olarkən hisslərini belə ifadə etdi. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə həyata keçirdiyi “Məktəbdə” layihəsinə dəvət alan millət vəkili illər sonra təhsil aldığı doğma məktəbinin dəhlizlərini, sinif otaqlarını gəzdi, ilk dəfə qədəm qoyduğu dərs otağına baş çəkdi, məktəb illəri, sevimli müəllimləri, sinif yoldaşları ilə bağlı xatirələrini yada saldı.

### “HƏR BİR İNSANIN TALEYİ ÖZ ƏLİNDƏDİR”

“İlk dəfə bu məktəbə gəldiyim gün indiki kimi yadımdadır. Valideynlərimin hər ikisi işlədiyi üçün məni məktəbə dayım qızı gətirdi. Bakı Ət Kombinatının yanından hər gün bu məktəbə qədər 3 km yarım məsafəni qət etdim, bir o qədər məsafəni də geri qayıtdım. İndi o küçə atam Davud Aslanın adını daşıyır. Həm Keşlə kəndi, həm də bu məktəb mənim həyatımda önəmli yer tutur”, - deyə qonaq xatırladı: “Mən rus dilində oxumuşam. 1-ci sinifdə Olqa Zaxarovna adlı müəllimim vardı. O dünyasını dəyişəndən sonra başqa müəllimlərdən dərs aldım”.

### “İLK MƏHƏBBƏTİM BU MƏKTƏBDƏ İDİ”

“Yəqin sizin üçün maraqlı olar: mən necə şagird olmuşam?”- deyə qonaq davam etdi: “Əlaçı olmamışam. Amma təhsil prosesinə həmişə diqqətlə yanaşmışam. Xüsusən 8-ci sinifdən sonra qarşıma bir məqsəd qoydum: nəyəsə nail olmalıyam. Mənim üçün bir motivasiya da vardı: ilk məhəbbətim bu məktəbdə idi. Sovet vaxtı institutu bitirməyən gənclərə qız vermirdilər. Bu da mənim üçün motivasiya oldu: ali təhsilim olmalıdır ki, gələcəkdə istədiyim qızla ailə qurum. Amma həyat öz diqtəsini edir. Bizdən asılı olmayan hadisələr də baş verir və bunlar bizim həyatımızı daha da rəngarəng və uğurlu edir. Yəqin sizin üçün maraqlıdır: sevdiyim insanla ailə həyatı qura bildimmi? Yox, qura bilmədim. Ondan sonra da sevdiyim xanımlar oldu. Amma qismət gətirib məni bir ailə sahibi etdi. Siz də böyüyəcəksiniz, sizin də qismətiniz olacaq. Hər kəs öz qismətinin üzərində daim çalışmalıdır. Ağlıma gəlməzdi ki, gələcəkdə millət vəkili, ictimai xadim və musiqiçi ola bilərəm. Amma oldum. Hər bir insanın taleyi öz əlindədir. Biz qismətimizin və həyatımızın müəllifiyik”.

### İNSANLARA YARDIMÇI OLMAQ

“Millətin vəkili, yoxsa Qızıl Aypara Cəmiyyətinin prezidenti - hansı daha məsuliyyətlidir?” sualına cavab verən N.Aslan fəaliyyəti haqqında qısa və konkret danışdı: “Hər ikisi məsuliyyətlidir. 1995-ci ildən Aypara Cəmiyyətindəyəm. Bu, insanlara yardımçı olmaqdır. Biz humanitar sahədə layihələr həyata keçiririk. Türkiyədə olan zəlzələdən sonra təşkilat böyük bir kampaniya həyata keçirdi. Biz artıq 400 minə yaxın vəsait toplamışıq. Biz artıq o vəsaitləri Türkiyəyə yönəltmişik. Fövqəladə Hallar Nazirliyi ilə razılaşmamız var. Tutaq ki, kiminsə evi yandı, dövlət işçiləri özlərini ora çatdırana qədər Qızıl Aypara işçiləri artıq orada olurlar. Dövlət qiymətləndirənə qədər biz artıq ilk yardımı edirik. Çadırdan ev qururuq, əşyalarla təmin edirik”. N.Aslan millət vəkili kimi öhdəliyindən danışaraq qeyd etdi ki, bu, çox ağır və şərəfli vəzifədir: “Çünki cəmiyyət və dövlət qanunlarla idarə olunur. Necə ki, məktəbin, yaşadığınız ailələrin öz qayda-qanunları var, ölkənin də, dövlətin də öz Konstitusiyası və qanunları var. O qanunlar mükəmməl olanda ölkə də, cəmiyyət də inkişaf edir. Mən hər dəfə qanunlara səs verərkən qəlbimdə böyük məsuliyyət hiss edirəm”.

> “Siz necə insansınız?”- deyə sual verəndə birmənalı olaraq deyirəm: “Pis insan deyiləm”.



### HUMANİZMİN ƏN GÖZƏL MELODİYASI

“Qızıl Ayparanın prezidenti olaraq fəaliyyət, millət vəkili kürsüsü, yoxsa royal arxası? Novruz Aslan özünü daha çox harada tapıb?”- deyə məktəblilər maraqlandı: “Mənim iş otağımda Qızıl Aypara Cəmiyyətindəki fəaliyyətim üçün masam, arxa otaqda səsyazma studiyası, yan tərəfdə də idman otağı var. Bütün fəaliyyətimi bir yerdə cəmləşdirmişəm. Çalışıram ki, biri digərinə mane olmasın”.

“Obrazlı desək, humanizmin ən gözəl melodiyası nədir?”- deyə soruşan şagirdin sualını qonaq təbəssümlə qarşıladı: “Humanizmin ən gözəl melodiyası sənin qəlbindir. Əgər düzgün döyünürsə, sənin melodiyan da düz olacaq”.

### “MUSİQİ MƏNİM HƏYAT TƏRZİM, DAXİLİ TƏLƏBATIMDIR”

Şagirdlərdən biri Novruz Aslanın bəstəkarlıq fəaliyyəti ilə maraqlandı: “Bəstəkarlıq sizin üçün sadəcə hobbidir, yoxsa daxili ehtiyac?” Qonaq “Təbii ki, daxili ehtiyac”, - deyə cavab verdi: “Hər bir insanın qəlbində bir musiqi var. Hər insanın səsində musiqi var. O musiqi varsa, demək insan o ali hisslərə artıq qovuşmuş olur. Musiqi mənim həm həyat tərzim, həm də daxili tələbatımdır. Mən musiqiyə ola bilsin, nə vaxtsa hobbi kimi baxırdım. Amma artıq musiqi mənim üçün yaradıcılıqdır, həyatımın böyük bir hissəsidir”.

### “HESABATLILIQ SƏNİ HƏMİŞƏ TƏZYİQ ALTINDA SAXLAYIR”

“Martın 10-da Qızıl Aypara Cəmiyyətinin yarandığı gün, martın 22-də isə sizin doğum gününüzdür. Yaşanan illərin hesabatı özünüzü qane edirmi?”, - deyə maraqlanan şagirdin sualına qonağın cavabı da maraqlı səsləndi: “Əslinə qalsa, həyat elə bir şeydir ki, heç vaxt onunla qane ola bilməzsən. Nə qədər də xoşbəxt, uğurlu olsan, hesabatlılıq səni həmişə təzyiq altında saxlayır. Mən həyatımı pis yaşamamışam. “Siz necə insansınız?”, - deyə sual verəndə birmənalı olaraq deyirəm: “Pis insan deyiləm”. Bir neçə gündən sonra Qızıl Aypara Cəmiyyətinin 104 illiyini qeyd edəcəyik. Ondan bir neçə gün sonra mən 60 yaşımı yaşayacam. Bu günlərdə 12-ci kitabımı bitirdim. “İnsanlar niyə qəddar olur?”, “Bir-birlərini niyə öldürürlər?” kimi suallar yəqin hamınızı maraqlandırır. Bütün bu sualların cavabını tapmağa çalışdım, gedib çıxdım Cənnətə - həm Adəmə, həm Həvvaya. Hər şey oradan qaynaqlanır”.